# GÖYƏRÇİN

ISSN- 0207- 4710
4-5
2005-cil

KROSSVORD



ŞERLƏR



NAĞIL VAXTI



KOMİKS "TOMİRİS"



# NAĞIL VAXTI

Monqol nağılı

## TÜLKÜ, MARAL VƏ QARĞA

Qədim zamanlarda bir tülkü, bir maral və bir qarğa yaşayırdı. Hər səhər onların hərəsi bir tərəfə yem dalınca gedər, axşam isə qayıdıb bir yerə gələr, başlarına gələnləri danışardılar.

Bir dəfə tülkünün işləri düz gətirmədi. Heç harda yem tapmayan tülkünün marala paxıllığı tutdu. Dedi ki, bəxtəvərə bax, həmişə qarnıtox qayıdır.

Tülkü maralı məhv etmək qərarına gəldi.

- Qulaq as, maral, mən qərb tərəfdə gözəl bir çəmən görmüşəm. O çəmənin otu çox dadlıdır. Sabah getsən, doyunca yeyə bilərsən.

Tülkiyə inanan maral səhərisi gün yola düşdü. Deyilən yerə gəlib çatanda gördü ki, tülkü onu aldadıb. Geri qayıtmaq istəyən maral tələyə düşdü.

Axşam tülkü və qarğa evə qayıtdılar. Nə qədər gözlədilərsə, maral gəlib çıxmadı. Qarğa narahat oldu. O, uçub maralı axtarmağa getdi. Gördü ki, yazıq heyvan tələyə düşüb.

Qarğa marala tapşırdı ki, özünü ölülüyə vur. Mən alaçığın yanındakı qocaya deyəcəyəm ki, tələyə maral düşüb. O, gəlib səni açacaq. Başı qarışanda ayağa qalxıb qaçarsan.

Qarğa dediyi kimi də elədi. Tələyə maral düşdüyünü eşidən qoca sevinə-sevinə qaçdı. Gördü ki, burada gözəl bir maral var. O, tələni açıb kənarda əyləşdi. Tərini silib siqaret çəkməyə başladı.

Qoca xəyallar aləminə dalanda maral qəflətən sıçrayıb qaçdı.

Hirsli qoca deyinə-deyinə tələni yenidən qurub pusquda dayandı.

Sizə kimdən xəbər verim, tülküdən. O nə qədər gözlədi, gözlədisə nə maral gəlib çıxdı, nə də qarğa. Tülkü qərara aldı ki, həmin yerə getsin. Getdi və özü tələyə düşdü.



Rəssam Aytən



Braziliya nağılı

## İNSAN HƏYATI

Belə nəql edirlər ki, bir dəfə daş ilə bambuk bərk mübahisə edirlər. Onların hər biri istəyir ki, insanın həyatı onların həyatına bənzəsin.

Daş deyir:

- İnsan həyatı mənim həyatıma oxşamalıdı. Əgər belə olsa, o, əbədi yaşayacaq.

Bambuk deyir:

- Yox, yox, insanın ömrü mənim ömrümə bənzəməlidi. Mən ölürəm, əvəzində övladlarım dünyaya gəlir.

Daş deyir:

- Yox, yaxşısı budur ki, insan mənim kimi ömür sürsün. Mən nə yağışı, nə küləyi vecimə alıram. Nə isti, nə soyuq mənə təsir edə bilmir. Mənim ömrüm əbədidir. İnsan ömrü də məhz belə olmalıdır.

Bambuk deyir:

- Yox, insanın həyatı mənim həyatıma bənzəməlidir. Bu düzdür ki, mən ölürəm. Ancaq ömrümü övladlarım davam etdirirlər. Bir ətrafa bax! Mənim dövrəmdə nə qədər övladım var. İnsanlar da dünyadan gedəndə onu övladları əvəz edəcək.

Daş susdu. Bambuk mübahisədə qalib gəldi. Bax elə buna görə də insanın həyatı daşın yox, bambukun həyatına bənzəyir.

*Tərcümə edib işləyəni R. Əliyev*

